***TƏRBİYƏ TEXNOLOGİYALARI***
***ВОСПИТАТЕЛЬНЫЕ ТЕХНОЛОГИИ***
***UPBRINGING TECHNOLOGIES***

*UOT 37.0*

***Lalə Akif qızı Məmmədli***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı mütəxəssisi*
*https://orcid.org/ 0000-0003-0686-3627*
https://doi.org/10.69682/azrt.2024.91(1).91-94

# ŞAGİRDLƏRDƏ FƏAL HƏYAT MÖVQEYİNİN FORMALAŞDIRILMASI: TƏLİM PROSESİNDƏ TƏLƏBƏLƏRİN BU FƏALİYYƏTƏ HAZIRLANMALARI

***Лала Акиф гызы Мамедли***
*доктор философии по педагогике,*
*ведущий специалист Института Образования Азербайджанской Республики*

# ФОРМИРОВАНИЕ АКТИВНОЙ ЖИЗНЕННОЙ ПОЗИЦИИ УЧАЩИХСЯ: ПОДГОТОВКА СТУДЕНТОВ К ЭТОЙ ДЕЯТЕЛЬНОСТИ В УЧЕБНОМ ПРОЦЕССЕ

***Lala Akif Mammadly***
*doctor of philosophy in pedagogy*
*leading specialist at the Institute of Education of the Republic of Azerbaijan*

# FORMATION OF AN ACTIVE LIFE POSITION OF PUPİLS: PREPARATION OF STUDENTS FOR THIS ACTIVITY IN THE TEACHİNG PROCESS

**Xülasə**. Gənc nəslin təşəkkül tapıb formalaşmasında təlim prosesinin özünəməxsus böyük imkanları vardır. Bu mənada yuxarı sinif şagirdlərində fəal həyat mövqeyinin tərbiyə olunmasında da təlim prosesi mühüm rol oynayır. Şagirdlərə bu mühüm mənəvi keyfiyyətin aşılanmasında, təbii ki, müəllimin üzərinə böyük vəzifələr düşür. Bu məqalədə tələbələrin bu sahədə rolundan danışılır. Lakin tələbələr ali məktəbdə bu fəaliyyətə hazırlaşdıqları halda şagirdlər arasında səmərəli iş apara bilərlər. Məqalədə ali məktəb fənlərinin imkanları araşdırılır. Tələbələr pedaqogika, psixologiya və digər fənlərin tədrisi zamanı zəruri bilik və bacarıqlara yiyələnirlər ki, şagirdlərdə fəal həyat mövqeyini formalaşdıra bilsinlər.
***Açar sözlər**: təlim prosesi, tələbələr, şagirdlər, fəal həyat mövqeyi, fəal həyat mövqeyinin formalaşdırılması*

**Резюме**. Учебный процесс обладает большими возможностями в формировании и становлении молодого поколения. В этом значении учебный процесс играет важную роль в воспитании активной жизненной позиции старшеклассников. Естественно, на учителя возлагается большая ответственность за привитие ученикам этого важного нравственного качества. В данной статье повествуется о роли студентов в этой области. Однако студенты могут вести эффективную работу среди учащихся, если будут подготовлены к этой деятельности в высшей школе. В статье рассматриваются возможности дисциплин высшей школы. В ходе преподавания педагогики, психологии и других дисциплин студенты приобретают необходимые знания и навыки для формирования у учащихся активной жизненной позиции.
***Ключевые слова**: учебный процесс, студенты, учащиеся, активная жизненная позиция, формирование активной жизненной позиции*

**Summary**. The educational process has great potential in the formation and development of the younger generation. In this sense, the educational process plays an important role in nurturing an active life

position in senior pupils. Naturally, the teacher has a great responsibility for instilling in pupils this important moral quality. This article talks about the role of students in this area. However, students can be effective pupil educators if they are prepared for these activities in higher education. The article discusses the possibilities of higher education disciplines. In the course of teaching pedagogy, psychology and other disciplines, students acquire the necessary knowledge and skills to develop an active life position in pupils.

***Key words**: educational process, students, pupils, active life position, formation of an active life position*

Təlim prosesi bir yandan təhsilalanları zəruri biliklıərlə silahlandırır, digər tərəfdən onların əxlaqının saflaşmasına, nümunəvi davranışa yiyələnmələrinə, mənəvi keyfiyyətlərinin daha da inkişaf etdirilməsinə öz köməyini göstərir. Heç də təsadüfi deyildir ki, pedaqoji ədəbiyyatda təlim prosesindən danışılanda onun üç başlıca vəzifəsini diqqət mərkəzinə gətirirlər: təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici.

Hər bir fənnin, bu və ya digər fənnə aid mövzunun tərbiyəedici imkanları vardır. Müəllim həmin imkanları görməli, mövzunu tərbiyələndirici baxımdan istiqamətləndirməlidir. Mövzular dərsin məqsədindən asılı olaraq təbiyəedici səmtə yönəldilir. Müəllim qarşıda dayanan vəzifəyə nail olduqda şagirdlərin (tələbələrin) şüuruna, hisslərinə müsbət təsir göstərə bilir.

Şagirdlərdə fəal həyat mövqeyinin formalaşdırılması baxımımdan da təlim prosesinin, dərsin imkanlarından faydalanmaq mümkündür. Məqsədimiz yuxarı sinif şagirdlərində fəal həyat mövqeyinin formalaşdırılması işinə pedaqoji fakültələrdə təhsil alan tələbələrin cəlb edilməsidir. Bəs tələbələr bu işə necə, harada hazırlanırlar. Pedaqoji təcrübə dövründə, gələcəkdə, ali təhsili başa vurub müəllim işləyərkən şagirdlərlə tərbiyə işlərini səmərəli şəkildə aparmaları üçün onlar hazırlıq keçməlidirlər. Məqalədə bu barədə söhbət açılacaqdır.

İbtidai sinif müəllimliyi ixtisası üzrə mühazirə və seminar məşğələlərində nəzərdən keçirilən mühüm, müəllimlik peşəsi üçün son dərəcə vacib fənlərdəndir.

Biz ilk növbədə nəzərdən keçirdiyimiz problem (fəal həyat mövqeyinin formalaşdırılması) baxımından pedaqogika fənninin imkanlarını araşdırdıq. Problemlə bilavasitə və bilvasitə bağlı olan mövzular aşağıdakılardır (fəsillər və paraqraflar üzrə):

VI FƏSİL.TƏRBİYƏNİN PRİNSİPLƏRİ

1.“Tərbiyənin prinsipləri anlayışı və tərbiyənin prinsiplərinin xarakteristikası.

2. Tərbiyədə məqsədaydınlığı prinsipi ... s. 151

3. Tərbiyə işinin həyatla, əməklə və Azərbaycan Respublikasında dinc quruculuq işləri ilə əlaqələndirilməsi prinsipi ... s. 153

4. Yaş xüsusiyyətlərinin nəzərə alınması prinsipi ...s. 154

5. Fərdi xüsusiyyətlərin nəzərə alınması prinsipi ... s. 159

6. Tərbiyədə sistemlilik, ardıcıllıq və fasiləsizlik prinsipi ... s. 160

7. Nikbinlik prinsipi ... s. 162

8. Şagirdin şəxsiyyətinə hörmətlə düzgün tələbkarlığın uzlaşdırılması (tərbiyədə hörmət və tələbkarlıq) prinsipi ... s. 163

9. Tələblərdə vahidliyin gözlənilməsi prinsipi ... s. 164

10. Tərbiyə prosesinə kompleks yanaşma prinsipi ... s. 166

11. Kollektivdə, kollektiv vasitəsilə və kollektiv üçün tərbiyə prinsipi . 167

XII FƏSİL. TƏRBİYƏNİN METODLARI

1. “Tərbiyənin metodları” anlayışı ... s. 169

2. Şüura, ağıla, idraka təsir göstərən metodlar (başqa sözlə, “inandırma metodları”) ... s. 169

3. Fəaliyyəti təşkil edən və mənəvi davranışı formalaşdıran metodlar (başqa sözlə, “alışdırma metodları”) ... s. 171

4. Şagirdlərin hiss və münasibətlərini, fəaliyyət və davranışını stimullaşdıran metodlar (başqa sözlə, “rəğbətləndirmə və cəzalandırma metodları”) ... s. 174

5. Müəllimin şəxsi nümunəsi ... s. 178

6. Tərbiyədə nəzarət, özünənəzarət və özünüqiymətləndirmə (başqa sözlə, tərbiyə prosesinə nəzarət və onun səmərəliliyinin təhlili) metodu ... s. 179

7. Tərbiyənin priyomları (tərzləri) və vasitələri

İstər “Tərbiyənin prinsipləri”, istərsə də “Tərbiyənin metodları” mövzuları tədqiq etdiyimiz problemlə birbaş (bilavasitə) bağlı olmasa da, bilvasitə bağlılığı vardır. Yəni Tələblər yuxarı sinif şagirdlərində fəal həyat mövqeyinə tələbat yaratmaq istədikdə istər-istəməz həm tər-

biyənin prinsiplərin, həm də metodlarına müraciət etməli olacaqlar. Tərbiyənin prinsipləri, başqa sözlə, tərbiyəvi fəaliyyət zamanı əldə rəhbər tutulan rəhbər müddəalardır. Eyni zamanda pedaqoji prosesdə yalnız tərbiyənin metodlarından faydalanmaqla, metodları yerli-yerində tətbiq etməklə səmərəli nəticələrə nail olmaq mümkündür.

XIV FƏSİL. MƏNƏVİ TƏRBİYƏ
1. Mənəvi tərbiyənin mahiyyəti. Mənəvi tərbiyə və mənəvi inkişaf
2. Mənəvi tərbiyənin vəzifələri və məzmunu

XX FƏSİL. MƏKTƏBLİLƏRLƏ SİNİFDƏNXARİC İŞ
1. Sinifdənxaric işin əhəmiyyəti və xüsusiyyətləri ... s. 221
2. Sinifdənxaric işin təşkili formaları və mahiyyəti ... s. 222

XXIII FƏSİL. SİNİF RƏHBƏRİ. ŞAGİRD KOLLEKTİVİNİN TƏŞKİLİ VƏ TƏRBİYƏSİ
1. Sinif rəhbəri ... s. 242
2. Sinif şagird kollektivinin təşkili və tərbiyəsi ... s. 244
3. Şagird özünüidarəsi ... s. 246

XXIV FƏSİL. MƏKTƏB, AİLƏ VƏ İCTİMAİYYƏTİN ƏLBİR İŞİ
1. Əlbir işin məqsəd və vəzifələri, istiqamətləri ... s. 250
2. Şagirdlərin valideynləri ilə məktəbin işinin formaları ... s. 251
3. Ailəyə dəstək təşkilatları və orqanları ... s. 256
3.1. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin ailələrlə işi ... s. 256
3.2. Yetkinlik yaşına çatmamışların işləri üzrə komissiyanın ailələrlə apardığı işlər ... s. 258

"Mənəvi tərbiyə" bəhsi həm bilavasitə, həm də bilvasitə tədqiq etdiyimiz problemlə uzlaşır. Fəal həyat mövqeyinin tərbiyə olunması mənəvi tərbiyənin mühüm tərkib hissələrindən, komponentlərindən biridir. O, mənəvi tərbiyənin vəzifələrindən biri kimi də nəzərdən keçirilir.

Bütün bunlarla yanaşı, tələbələr həm də sinifdənxaric işin qarşısında duran vəzifələrlə, sinifdənxaric işin mahiyyəti və təşkili formaları ilə də yaxından tanış olmalıdırlar ki, şagirdlərlə sinifdənxaric işləri, o cümlədən təhsilalanlarda fəal həyat mövqeyinin formalaşdırılması sahəsində işləri tələb olunan səviyyədə qura bilsin. Bu istiqamətdə məktəb, ailə və ictimaiyyətin əlaqə formalarını və onların fəaliyyətlərinin istiqamətlərini və işlərinin məzmununu bilmək də vacibdir.

Biz eyni zamanda problem baxımından psixologiya fənninin imkanlarını da öyrəndik. Problemlə (fəal həyat mövqeyinin formalaşdırılması) əlaqəli mövzular aşağıdakılardır (fəsillər və paraqraflar üzrə):

IV FƏSİL. ŞƏXSİYYƏTİN PSİXOLOJİ CƏHƏTDƏN ÖYRƏNİLMƏSİ
1. Şəxsiyyət, fərd və fərdiyyət anlayışları ... s. 128
2. Şəxsiyyətin inkişafının ilkin təbii şərtləri və sosial şəraiti ... s. 133
3. Şəxsiyyət və fəaliyyət ... s. 138

VIII FƏSİL. ŞƏXSİYYƏTİN İNKİŞAFI
1. Şəxsiyyətin inkişafının hərəkətverici mexanizmləri ... s. 236
2. İnsanın fərd və şəxsiyyət kimi inkişaf mərhələləri ... s. 241
3. Aparıcı fəaliyyət və şəxsiyyətin ontogenetik inkişafında onun rolu... s. 24

XVI FƏSİL. TEMPERAMENT VƏ XARAKTER
1. Temperament ... s. 447
§ 1. Davranışın dinamik xarakteristikası ... s. 448
§ 2. Temperamentin təsnifatı və sinir sisteminin xassələri ... s. 450
§ 3. Temperamentin xassələri... s. 455
§ 4. Peşə fəaliyyətində və təlim fəaliyyətində fərdi üslub ... s. 462
2. Xarakter ... s. 465
§ 1. Xarakter və şəxsiyyətin motivasiya sahəsi ... s. 465
§ 2. Xarakter əlamətləri ... s. 471
§ 3. Xarakterin aksentuasiyası ... s. 476
3. Fəaliyyətin iradi tənzimi... s. 478

XVII FƏSİL FƏRDİYYƏTİN TİPOLOGİYASI
1. Fərdiyyətin tipologiyası haqqında

2. Şəxsiyyətin təlim-tərbiyəsi işində fərdi xüsusiyyətlərin təhlili və nəzərə alınması

XVIII FƏSİL. ÜNSİYYƏTİN PSİXOLOGİYASI

1. Ünsiyyətin xüsusiyyətləri... s. 501

2. Ünsiyyət, insanların qarşılıqlı təsiri və qarşılıqlı münasibətləri ... s. 508

§1. Ünsiyyət qarşılıqlı təsir kimi ... s. 508

§ 2. İnsanların qarşılıqlı münasibətləri və ünsiyyət... s. 511

§ 3. Ünsiyyət çətinlikləri və onların aradan qaldırılması yolları ...s. 513

XX FƏSİL.ŞƏXSİYYƏT VƏ AİLƏ

1. Ailə: məhəbbət və şəxsiyyət... s. 556

2. Ailədə psixoloji uyuşma haqqında ... s. 560

3. Ailədaxili münaqişələr, böhranlar və onların aradan qaldırılması ... s. 565

4. Ailədaxili ünsiyyət ... s. 571

Yuxarıda adları göstərilən fəsillərə daxil olan mövzularla yaxından tanış olmaq sayəsində tələbələr pedaqoji təcrübədə olarkən həm dərslərdə, həm də sinifdənxaric və məktəbdənkənar tədbirlər zamanı məktəblilər, o cümlədən yuxarı sinif şagirdlərində fəal həyat mövqeyi formalaşdıra bilirlər.

**Problemin aktuallığı**. Tələbələrin təlim prosesində şagirdlərlə tərbiyə işlərinə hazırlanmaları aktual bir mövzu kimi diqqətə mərkəzinə gətirilir. Məqsəd yuxarı sinif şagirdlərində fəal həyat mövqeyinin formalaşdrılmasından ibarətdir.

**Problemin yeniliyi**. Yuxarı sinif şagirdlərində fəal həyat mövqeyinin formalaşdrılması kimi mühüm bir fəaliyyətə tələbələrin təlim prosesində hazırlanmalarından söz açılır.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**


1. Bayramov, Ə.S. Psixologiya: Ali məktəblər üçün dərslik / Ə.S. Bayramov, Ə.Ə. Əlizadə. – Bakı: Çinar Çap, – 2002. – 620 s.
2. Abbasov, A.N. Pedaqogika nəzəriyyəsi və tarixi: Ali təhsil müəssisələri üçün dərslik / A.N. Abbasov, L.A. Məmmədli, İ.B. Əmirəliyeva. – Bakı: Mütərcim, – 2022. – 464 s.


**E-mail**: lale23@mail.ru

**Rəyçilər**: *ped.elm.dok., prof.* **A.N. Abbasov,**
*ped.ü.fəls.dok.* **R.R. Məmmədzadə**
**Redaksiyaya daxil olub:** 12.02.2024